ATATÜRK ÜNİVERSİTESİ YAYINLARI
ATATURK UNIVERSITY PUBLICATIONS

Araştırma Makalesi *Research Article*

DOI: 10.62425/dogu.1762091

# Nəvizadə Ətayinin Həyatının Sosial-Tarixi Konteksdə Tədqiqi

## Nev'îzâde Atâyî'nin Hayatının Sosyal-Tarihî Bağlamda İncelenmesi

## The Study of Navizade Atayi`s Life in a Socio-Historical Context

Lale HIDAYETQIZI
Azerbaycan Milli Bilimler Akademisi, Bakü, Azerbaycan

**XÜLASƏ**

Osmanlı ədəbiyyatında klassik ənənəni davam etdirən və XVII əsrin mühüm simalarından biri kimi tanınan Nəvizadə Ətayinin həyatı və yaradıcılığı elmi ədəbiyyatda diqqətəlayiq mövzulardan biridir. Onun ədəbi şəxsiyyətini və intellektual dünyagörüşünü anlamaq üçün ilk növbədə bioqrafik faktların araşdırılması zəruridir. Bu məqalədə Ətayinin həyatı ilə bağlı əsas nüanslar araşdırılmış, onun şəxsi və ictimai kimliyi, mənsub olduğu ailə mühiti, fəaliyyət göstərdiyi inzibati vəzifələr, yaşadığı və işlədiyi məkanlar kimi aspektlər müxtəlif tarixi qaynaqlar və təzkirələr əsasında elmi şəkildə sistemləşdirilmişdir. Ətayinin öz əsərlərindəki avtoqrafik qeydlər, dövrün digər şair və mütəfəkkirlərinin onun haqqında verdiyi bilgilər, eləcə də müasir tədqiqatlarda yer alan məlumatlar bu araşdırmanın əsas informasiya bazasını təşkil etmişdir. Məqalədə məqsəd, şairin həyat kontekstini də aydınlaşdırmaq və ədəbi fəaliyyətini bu zəmin üzərində dəyərləndirməkdir.

**Açar sözlər:** Nəvizadə Ətayi, tarixi mənbələr, avtoqrafik qeydlər, şairin mühiti və ailə mənşəyi

ÖZ

Osmanlı edebiyatında klasik geleneği sürdüren ve XVII. yüzyılın önemli simalarından biri olarak tanınan Nevizâde Atayî'nin hayatı ve edebi şahsiyeti, bilimsel literatürde dikkat çekici konulardan biridir. Onun edebi kimliğini ve entelektüel bakış açısını anlayabilmek için öncelikle biyografik verilerin araştırılması gereklidir. Bu makalede Atayî'nin hayatına dair temel noktalar ele alınmış; şahsi ve toplumsal kimliği, mensup olduğu aile çevresi, görev aldığı idari pozisyonlar ile yaşadığı ve faaliyet gösterdiği mekanlar, çeşitli tarihî kaynaklar ve tezkireler doğrultusunda bilimsel bir biçimde sistematize edilmiştir. Atayî'nin kendi eserlerinde yer alan otobiyografik notlar, döneminin diğer şair ve düşünürlerinin onun hakkında aktardığı bilgiler ile çağdaş araştırmalarda yer verilen veriler, bu çalışmanın temel bilgi kaynaklarını oluşturmuştur. Bu makalenin amacı, şairin yaşam bağlamını daha net ortaya koymak ve edebi faaliyetlerini bu zeminde değerlendirmektir.

**Anahtar Kelimeler:** Nev`izade Atayi, tarihi kaynaklar, otobiyografik kayıtlar, şairin çevresi ve aile kökeni

**ABSTRACT**

One of the prominent figures of the 17th century and a representative of the classical tradition in Ottoman literature, Navizade Atayi's life and literary legacy have become noteworthy subjects in modern scholarship. In order to fully understand his literary persona and intellectual worldview, a detailed examination of his biographical background is essential. This article explores the main biographical elements of Atayi's life, analyzing his personal and social identity, family background, administrative roles, and the places in which he lived and worked. These aspects are systematically studied based on various historical sources and biographical dictionaries (tezkires). The primary sources of this research include Atayi's own autobiographical notes within his works, references made by his contemporaries—poets and intellectuals—as well as findings from modern academic studies.

The aim of the article is to contextualize Atayi's life and to assess his literary activity within this broader framework.

**Keywords:** Navizade Atayi, historical sources, autobiographical notes, the poet's milieu and family background

| | |
|---|---|
| Geliş Tarihi/Received: | 10.08.2025 |
| Revizyon Veriliş Tarihi/Revision Issued: | 15.09.2025 |
| Revizyon Bitiş Tarihi/Revision Ended: | 19.09.2025 |
| Kabul Tarihi/Accepted: | 19.09.2025 |
| Yayın Tarihi/Publication Date: | 22.09.2025 |

Sorumlu Yazar/Corresponding author:
E-mail: lalehidaytqizi@gmail.com

Cite this article: Hidayetqızı, L. (2025). The study of Navizade Atayi`s Life in a Socio-Historical Context. *A Journal of Iranology Studies*, 23, 70-79.

Atıf: Hidayetqızı, L. (2025). Nəvizadə Ətayinin Həyatının Sosial-Tarixi Konteksdə Tədqiqi. *Doğu Esintileri*, 23, 70-79.

Content of this journal is licensed under a Creative Commons Attribution-Noncommercial 4.0 International License.

## GİRİŞ

XVII. əsr Türk ədəbiyyatının görkəmli divan və məsnəvi ustası Nəvizadə Ətayinin həyatına dair məlumatları əsasən onun əsərlərindən, təzkirələrdən və digər şairlərin qeydlərindən əldə edirik. Məşhur şairin 1583-cü ildə İstanbulda nüfuzlu ailədə dünyaya gəldiyi məlumdur. Mövcud mənbələrin əksəriyyəti onun bu tarixdə doğulduğunu təsdiqləyir. Əsl adı Ətaullah olsa da, daha çox Nəvizadə Ətayi kimi tanınır. Ətayi isə Ətaullah adının qısaldılmış formasıdır. O, Osmanlı sultanı III Muradın sarayında şahzadələrə dərs verən böyük alim və məşhur şair Nəvi Yəhyanın oğludur. Bu səbəbdən özünü Nəvizadə, yəni Nəvinin oğlu kimi təqdim etmişdir. İlkin təhsilini atasından almışdır. Atası onu mütəmadi olaraq dövrünün nüfuzlu şəxslərinin iştirak etdiyi elmi, dini, fəlsəfi, ədəbi məclislərə aparırdı. Burada dövrünün tanınmış simaları ilə tanış olurdu. Bu mühit onun şair kimi yetişməsində mühüm rol oynamışdır. Ətayi atasının və ətrafındakı şairlərin təsirinə düşərək çox istedadlı bir sənətkara çevrilməsi tamamilə təbiidir. Aparılan araşdırmalar göstərir ki, onun divanındakı şeirlərin əksəriyyəti atasının - Nəvinin və onun yaxın dostu olan şairlərdən Baki, Şeyxüslam Yəyha və Nəfinin təsiri altında yaranmışdır (Karaköse, 2017, s. 15). Bu təsir, xüsusilə onun poetik üslubunda və dünyagörüşündə öz əksini açıq şəkildə büruzə verir.

Ətayinin atası, əsl adı Yəhya olan Nəvi, 1533-cü ildə Malkara şəhərində anadan olmuşdur. O, İstanbulda dövrün ali dini və elmi müəssisələrindən olan mədrəsələrdə yüksək səviyyəli təhsil almışdır. Oğlu Ətayinin qeyd etdiyinə görə, onun mədrəsə yoldaşları arasında Baki, Xoca Sadəddin Əfəndi, Ədirnəli Məcdi və Üsküblü Valihi kimi on dörd şair var idi (Atâyî, No. R. 1438, ss. vr. 256a-b).

Nəvinin yaradıcılıq fəaliyyəti əsasən III Muradın hakimiyyəti illərinə təsadüf edir. Şairin qəsidələrinin əksəriyyəti məhz III Muradın şərəfinə qələmə almışdır. Onun, hətta III Məhmədin sünnəti münasibətilə yazdığı Suriyyəsi[1] ən çox tanınan əsərlərindən biridir.

Hökmdar Mustafa, Bəyazid, Osman və Abdullah adlı dörd şahzadənin təlim-tərbiyəsini Nəviyə həvalə etmişdi. Təhsil prosesləri davam edərkən şahzadələrlə Ətayi arasında dostluq əlaqələri yaranır. Onlardan Mustafa ilə daha yaxın, səmimi dostluq münasibətləri var idi. III Muradın vəfatından sonra taxta III Məhməd çıxır. III Məhməd hakimiyyətə gələn kimi qardaşlarını edam etdirir. Qardaşının hakimiyyətə gəlməsindən sonra həyatdan ümidini üzən Mustafa, öldürüləcəyini bilərək dostu Ətayiyə bu beytləri yazıb göndərir.

Nâsıyemde kâtib-i kudret ne yazdı bilmedüm
Âh kim bu gülşen-i ‘âlemde hergiz gülmedüm

(Donuk, 2017, s. 131)

*(Alnımda qüdrət sahibi nə yazdı bilmədim, bu gülüstan dünyada heç vaxt üzüm gülmədi)*

Nəvinin saraydakı müəllimlik fəaliyyəti III Muradın vəfatı ilə başa çatır. O, təlim verdiyi şahzadələrin boğdurularaq öldürülməsi ilə bağlı yazdığı mərsiyələrlə də tanınmışdır. III Məhməd də Nəviyə dərin ehtiram bəsləmişdir. Nəvinin saraydakı nüfuzunun əsasında onun həm şairlik istedadı, həm də yetkin şəxsiyyəti dayanmaqda idi. Ətayi, 1599-cu ildə atasının vəfat edərkən mal-mülkünün olmadığını və dəfn xərclərinin hamısının III Məhməd tərəfindən qarşılandığını qeyd edir. (Atâyi, 1989, s. 677)

Ətayi, IV Murada təqdim etdiyi qəsidədə, Sultan III Muradın rəğbətini qazanmış və uzun illər şahzadələrin təlim-tərbiyəsi ilə məşğul olaraq böyük nüfuz sahibi atasından bəhs edir:

Peder Sultân Murâd-ı Sâlis’üñ olmışdı manzûrı
Nice yıl hidmet-i ta‘lîm-i şeh-zâdeyle şân buldı

(Karaköse, 2017, s. 95)

[1] 16cı əsrdə Osmanlıda klassik ərəb poziyasını davam etdirən saraya və yerli hökmdarlara mədhiyyə

*(Həmin ata, sultan III Murad tərəfindən qiymətləndirilmişdi. Neçə il şahzadələrin təlim-tərbiyə xidmətində şan-şöhrət qazandı.)*

Ətayi atasına dərin məhəbbət, böyük hörmət və səmimi heyranlıq hissi bəsləyirdi. Ətayinin poetik yaradıcılığında atasına olan dərin sevgi və ehtiram hissi mütəmadi şəkildə öz əksini tapır. Xüsusilə onun 1617-ci ildə qələmə aldığı ilk məsnəvisi olan “Saqinamə”də bu münasibət aydın şəkildə ifadə olunmuşdur. Əsərdə yer alan aşağıdakı beyitlərdə şair atasına qarşı həm mənəvi bağlılığını, həm də ədəbi irsini vurğulayır:

Anun feyzidür dilde olan güher
Hem üstaddur bana ol hem peder
N`ola pişva itsem ol arifi
O Cami-i asr idi ben Hatifi

(Kuzubaş, 2009, s. 156)

*(Dilimdəki cövhər onun lütfündəndir həm müəllimimdir, həm də atam. O alimi rəhbər bilirəm. O əsrinin Camisi idi mən isə Hatifiyəm)*

Bu beytdə Ətayi, atasını yalnız bioloji valideyn olaraq deyil, həm də mənəvi və ədəbi bir ustad kimi qəbul edir. Atasına qarşı heyranlığını demək olar ki, bütün əsərlərində göstərmişdir.

Zamânede benüm ol şâir oglı şâir kim
Baş egdi nazmuma dünyânun ehl-i irfânı

(Donuk, 2017, s. 130)

*(Dünyanın əhli irfani nəzmimə baş əyən dövrün şair oğlu şairəm )*

Nəvizadə Ətayinin bu beyti, onun yaşadığı dövrün ictimai-mədəni şəraitində soy-kökə verilən dəyəri əks etdirir. O dövrdə əsil-nəcabətə malik olmaq insanı daha nüfuzlu edirdi.

Ətayinin atasına olan bağlılığını göstərən başqa sübut isə onun Nizami Gəncəvinin “Həft Peykər” kimi çətin məsnəvisinə necə cavab yazacağını düşündüyü zaman baş verən hadisədir. O, bu ağır vəzifənin öhdəsindən necə gələcəyini xəyal edərkən, yuxusunda atasını görür. Atası ona vaxtilə verdiyi mənəvi dəstəyi xatırladır və bu yolda irəliləməyi tövsiyə edir. Bu yuxu, Ətayinin atasının mənəvi təsirinin onun həyatında nə qədər dərin olduğunu göstərir. Hətta şair, atasını yuxuda görmə hadisəsinə *“Xab didən-e şair-e bitab” (yorğun şairin yuxu görməsi)* adlı geniş hissə həsr etmişdir ki, bu da atasının onun üçün nə qədər əhəmiyyətli olduğunu bir daha sübut edir.

Nəvizadə Ətayinin mənsub olduğu ailə, Osmanlı ictimai və siyasi həyatının yüksək təbəqəsinə mənsub xeyli şəxsiyyət yetişdirmişdir. Ətayinin mütəsəvviflərlə eyni ailədə böyüməsi, onun gələcəkdə qələmə alacağı mənzum və mənsur əsərlərinə də böyük təsir göstərmişdir.

Ətayi təxminən on beş yaşında olarkən atasını itirmişdir. İlk təhsilini atasının nəzarəti altında almış olsa da, onun təhsili yarımçıq qalmır, çünki dövrünün tanınmış alimləri tərəfindən təlim və tərbiyəsinə diqqət olunurdu. Nəvinin vəfatından sonra 1599-cu ildə Qafzadə Feyzulladan dərs almışdır. Nəvizadə bu vəziyyəti “Bu hakîr evâ’il-i hâlde şeref-i telemmüzleri ile müteşerrif ve deryâ-yı feyz-i nâ-mütenâhîlerinden muğterif olmış idüm.” *(Bu həqir, ilk vaxtlarda onların şagirdi olmaq şərəfinə nail olmuş və sonsuz feyz dəryasından bəhrələnmişdim)* ibarəsiylə “Hadâ’iku’l-hakâik fî-tekmileti’ş-Şakâ’ik” əsərində şəxsən qeyd etmişdir (Donuk, 2017, s. 111). Bir neçə ildən sonra təhsilini 1601-ci ildə Əxizadə Əbdülhəlimin nəzdində tamamlamışdır. Ətayinin təhsil aldığı digər şəxs isə Qaraca Əhməd Əfəndidir.

“Bu hakîr evâ’il-i hâlde hidmet-i ‘aliyyelerinden telemmüz ve kand-ı mu‘âd-ı ders ü tahkîklerinden telezzüz itmiş idüm.” *(Bu həqir, ilk vaxtlarda onların yüksək xidmətlərindən şagirdlik etmiş və dərs və tədqiqatlarının misilsiz şirinliyindən ləzzət*

*almışdım)* (Donuk, 2017, s. 112). Şair, nüfuzlu alim Qaraca Əhmədin yanında tələbə kimi yetişdiyini və onun zəngin elmi biliklərindən, elmi-tədqiqat fəaliyyətindən faydalandığını təvazökarlıqla bəyan edir. Bu ifadə, müəllifin müəlliminə qarşı duyduğu dərin ehtiramı və aldığı təhsilə görə göstərdiyi minnətdarlığı əks etdirən mühüm göstərici kimi dəyərləndirilə bilər.

Ətayinin atası – tanınmış şair Nəvi haqqında kifayət qədər məlumat mövcud olsa da, anası barədə demək olar ki, heç bir mənbədə məlumat yer almır. Nəvi də öz əsərlərində həyat yoldaşı ilə bağlı məlumat qeyd etməmişdir. Onun evli olub-olmaması dəqiq bilinməsə də, Ətayinin Nəvinin övladı olduğu faktı təsdiqlənmişdir. Ətayi də bəzi əsərlərində ailəsinə dair ümumi məlumat versə də, nə anası, nə də həyat yoldaşı haqqında konkret bilgilərə rast gəlinmir. Bu hal, ehtimal ki, dövrün ictimai və ədəbi normaları ilə izah oluna bilər; belə ki, həmin dövrdə qadınların ictimai şəkildə təqdim edilməsi və şəxsi həyatın bu aspektlərinin yazılı mətnlərdə əks olunması geniş yayılmış praktikaya uyğun deyildi. Bu səbəbdən də hər iki şairin ailə üzvü olan qadınlar haqqında məlumat verməməsi dövrün konteksində təbii qarşılanmalıdır.

Ümumiyyətlə, şairlər həyatlarına dair bəzi məlumatları öz əsərlərində vurğulayırlar. Bəzən isə yazdıqları əsərlərdən, şeirlərdən həmin şəxsin xarakterini anlamaq mümkündür. Eynilə Ətayi də həyatına, yaşayışına aid müəyyən detalları əsərlərində qeyd etmişdir. Ətayinin həyatı haqqında məlumatlar məhduddur. Onun nə zaman və harada evləndiyi bilinmir. Lakin 1605-ci ildə oğlu Məhəmməd dünyaya gəldiyini şair Divanında qeyd edir.

Seher gün gibi togdı çün Muhammed
Kabûl oldu sûz-ı dil subhgâhı

(Karaköse, 2017, s. 267)

*(Səhər günəşi kimi Məhəmməd doğuldu, ürəyimin yanğısı səhər çağı qəbul oldu.)*

“Hadâ’iku’l-hakâik fî-tekmileti’ş-Şakâ’ik” şairin nəsrlə qələmə aldığı əsərləri içərisində ən mühüm və faydalı olanı hesab edilir. Ətayinin müstəqil bioqrafik əsəridir. Burada müəllifin öz ulu babalarının məzarlarını axtarıb tapması, onların həyatı və fəaliyyəti ilə bağlı məlumatlar toplaması onun geneologiyaya olan marağını və tədqiqatçı ruhunu əks etdirir. Eyni zamanda, özündən əvvəlki qazilərin fətva və məktublarını araşdırması onun tarixi sənədlərə verdiyi önəmi və məlumatları dəqiqləşdirmək üçün nümayiş etdirdiyi səyləri göstərir.

Beləliklə, Ətayidə müşahidə olunan güclü tədqiqatçılıq qabiliyyəti onu dövrünün digər bioqrafiya müəlliflərindən fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Onun dərin araşdırmaları və topladığı dəyərli məlumatlar bu əsərləri həm ədəbi, həm də tarixi baxımdan mühüm mənbələrə çevirir.

Ətayinin soy-kökünə olan dərin məhəbbəti və bununla bağlı qüruru əsərlərində öz əksini tapmaqdadır. Belə ki, o, öz ulu babalarının izlərini araşdırıb tapmışdır. “Nəfxətül-əsrar” əsərində yazır:

Kisve ile kulına imdâddan
Zâhir idi olduğum evlâddan
Var-idi aslumda siyâdet benüm
Şübhemi def‘ itdi bu hil‘at benüm

(Kuzubaş, 2005, s. 160)

*(Kisvə (Kəbə örtüyü və ya paltar, qiyafə) vasitəsilə quluna kömək etməkdən, hansı soyda, nəsildən olduğum aşkar idi. Əslində kökümdə ağalıq (seyidlik) var idi, Bu xələt (ənam, rütbə) mənim şübhəmi aradan qaldırdı)*

“Kisvə” ərəb dilindən gələn “كِسْوَة” sözüdür və əsasən “örtü”, “paltar”, “qiyafə” mənasında işlənirdi. Osmanlı dövründə “kisvə” ümumi “libas, geyim” mənasında işlənib. Əlavə olaraq kisvə Osmanlı sarayında xüsusi mərasimlərlə hazırlanır və Məkkəyə göndərilirdi. Evliya Çələbi Məkkə ziyarətindən bəhs edərkən Kəbə örtüsünü “Kisve-i Şerif” adlandırır və onun hər il Misirdə hazırlanıb Məkkəyə göndərdirildiyini qeyd edir (Çelebi, 1671-1672, s. 744).

“Hil`ət” ərəb mənşəli söz olub orta əsrlər ədəbiyyatında və siyasi-mədəni mühitində xüsusi rəmzi bir anlayışdır. Bu söz

əsasən “libas”, “geyim”, “xüsusi paltar” mənasına gəlsə də, ədəbiyyat və saray həyatı kontekstində təkcə maddi geyimi deyil, həm də simvolik mərasim aktını və ictimai statusun ifadəsini bildirir. Klassik dövr ədəbiyyatında bir sıra şairlər “hil`ət” anlayışından öz sosial və ya poetik statuslarını təsdiqləmək və mövqelərini nümayiş etdirmək məqsədilə də istifadə edirdilər (İnalcık, 2020, ss. 243-244).

Beyt, Ətayinin öz nəsil-nəcabətinə olan inamını və bunu sübut etmək üçün istifadə etdiyi arqumentləri ortaya qoyur. Şair, zahiri əlamətləri və əldə etdiyi nüfuzu soy-kökünün (seyidliyinin) təsdiqi kimi təqdim edir. Bu, dövrün sosial-ideoloji kontekstində, xüsusilə nüfuzlu şəxslərin öz soylarını ulu şəxsiyyətlərə bağlama tendensiyası ilə də əlaqəli ola bilər. Bu misralar şairin dini inancını, soyuna olan hörmətini və mənəvi bağlılığını güclü şəkildə əks etdirir.

Osmanlı mədəni həyatının bir sıra mühüm simaları barədə məlumatları özündə ehtiva edən Ətayinin “Zeyl-i Şakâ’ik” və ya “Zeyl-i Atâyî” adı ilə tanınan “Hadâ’iku’l-hakâik fî-tekmileti’ş-Şakâ’ik” mənsur əsərində qeyd edilir ki, onun babası Pir Əli bin Nasuh adlı Xəlvətilik təriqətinin əsas qollarından biri olan Gülşəniyyəyə mənsub olmuşdur (Kortantamer, 1993, s. 103). Nəvizadənin daha sonra izah etdiyinə görə babası Monqol istilasından sonra Osmanlıya köç etmişdir. Rodosçuk əyalətinin *(müasir Bolqarıstanın Ruse vilayəti)* “İvaz Fakih” adlı kiçik yaşayış məntəqəsi yaxınlığında inzivaya çəkilərək ibadətlə məşğul olub.

Professor Hüseyn Məmişoğlu Bolqarıstan Türklərinin həyatı və tarixi üzərində xeyli elmi araşdırmalar aparmışdır. Onun “Bulgaristan`da Türk kültür ve Sanat Eserleri” elmi məqaləsində - *“On dördüncü yüzyılın ortalarından başlayarak Balkan`lara geçen atalarımız adım adım bu topraklara yayılmışlar ve Anadolu`nun özbeöz Türk-Müslüman halkını bu yörelere yerleştirmişlerdir.”* bildirir. (Memişoğlu, 1994, s. 311).

Bu bölgədə Osmanlı idarəçiliyi zamanı bir çox kənd və məntəqələr mövcud olmuşdur. Ruse vilayəti, müasir Bolqorıstanın şimalında, Tuna çayı sahilində yerləşir və Osmanlı dövründə Rusçuk adı ilə tanınırdı.

Azərbaycanın tanınmış nizamişünas alimi Nüşabə Araslı bu mövzu ilə bağlı apardığı tədqiqatlarında belə bir fikrə yer verir: *Şair “Xəmsə”sinin 2-ci əsəri “Nəfxətül-əsrar”da babasının XV əsrin məşhur xəlvətiyyə şeyxi Gülşəni ilə görüşməsindən bəhs edən bölmədə şeyxin cəzbəsi, hikmət və möcüzələrindən danışarkən bu görüş zamanı Gülşəninin onun babası salik Pir Əliyə evlənməyi tövsiyə etdiyini və ona bir sevimli oğlu olacağı haqqında müjdə verdiyini qeyd edir. Bu qeyri-adi uşağın gələcəkdə maarif kəsb edərək uca məqama yetişəcəyini qabaqcadan ona söyləyir* (Araslı, 2019, s. 90).

Görünür, Pir Əli və Nəvinin tərbiyəsi Ətayinin təsəvvüf dünyasına olan marağının formalaşmasında mühüm rol oynayır.

Ətayi və Cəlvətiyyə şeyxi Əziz Mahmud Hüdayi arasında yaxın münasibətlərin olub-olmadığı dəqiq müəyyən edilməmişdir, lakin o, övliyalardan mənəvi ilham almışdır. Şair bütün əsərlərində təriqət mənsublarına bəslədiyi sevgi və hörməti müxtəlif ifadələrlə dilə gətirmişdir. Onun “Həft xan” əsərində Cəlvətiyyə təriqətinə aid çoxsaylı beytlər mövcuddur:

Oldı eh-i salaha cümle sala
Kopdı her hayda savt-ı hayy-ı ala

(Karacan, 1974, s. 164)

*(Bütün səslər salehliyə (duaya) çevrildi, Hər yerdə uca və diri olanın Allahın səsi yüksəldi)*

Ətayi, Cəlvətilik təriqətinin əsas prinsiplərinə söykənən “Əsma-i Səba” anlayışına daxil olan Allahın “Hayy” (həyat verən, diri olan) adının xüsusilə namaz vaxtlarında camata tərəfindən zikr edilməsinə diqqət çəkir. Şair bu məqamda həm Cəlvətilik irafının təsiri altında formalaşan ilahi eşq halını, həm də kainatda mövcud olan ilahi ahəng və vəhdəti poetik dillə ifadə edir.

Ümumi olaraq Ətayinin bu mövzudakı ifadələri təriqət böyüklərinə olan dərin hörmətini, təsəvvüfi ideyalara bağlılığını və Cəlvətiyyənin prinsiplərinə olan rəğbətini əks etdirir. O, beytlərində mürşidlərin əhəmiyyətini, zikrin və ibadətinin dəyərini, nəfsi tərbiyə etməyin zərurətini və ilahi eşqin gücünü vurğulayan fikirlər ifadə etmiş ola bilər

“Hadâ’iku’l-hakâik fî-tekmileti’ş-Şakâ’ik” əsərində başqa bir məqama nəzər saldıqda görünür ki, “Bin iki … rebî‘ü’l-âhirinde … Rûmili Beglerbegisi Sinan Paşaoğlı Mehemmed Paşa Hatvan Kal‘ası kurbında münhezim olup müteferrika ve çavuş kısmı vücûh-ı ‘askerden cem‘-i kesîr şehîd oldı. Cümleden râkımu’l-hurûfun hâl-i huceste-hisâli Nişancızâde Ahmed Beg ve Rahîmîzâde sîr-âb-ı şerbet-i şehâdet oldılar” (Donuk, 2017, s. 111) *(Bin iki ... rəbiülaxirində ... Rumeli Bəylərbəyi Sinan Paşaoğlu Məhəmməd Paşa Xatvan qalası yaxınlığında məğlub olub, müxtəlif dəstələr və çavuşlardan ibarət çoxsaylı hərbi qulluqçu şəhid olmuşdur. Onların arasında bu sətirlərin yazarı olan xoşxasiyyətli Nişancızadə Əhməd bəy və Rəhimizadə də şərbəti-şəhadətdən içmişlər).* Ətayi Nişancızadə Əhməd bəy adlı dayısı olmuş və o, Hatvan qalasının (Macarıstanın Hatvan şəhərində yerləşir) yaxınlığında 1594-cü ildə şəhid olmuşdur. Hatvan 1544-cü ildən 1686-cı ilə qədər Osmanlı İmperiyasının nəzarəti altında olmuşdur.

Ətayinin kitaba olan həvəsi də onun şəxsiyyətinin mühüm bir aspektidir. “Hadâ’iku’l-hakâik fî-tekmileti’ş-Şakâ’ik” əsərində Ətayinin çoxlu kitab topladığı və əsl “kitab qurdu” olduğunu dəfələrlə vurğulayır. Hətta onun “Həft Xan” əsərini yazma səbəbi dostları ilə etdiyi kitab söhbəti olmuşdur. Ətayi sadəcə kitab toplamaqla kifayətlənməmiş, həm də başqalarında gördüyü əsərləri dərindən araşdıraraq onlar haqqında qeydlər aparmışdır. Bu da onun zəngin biliyə və elmi marağa sahib olduğunu göstərir

Əsərlərində işlətdiyi yumorlardan, lətifələrdən və ifadələrdən onun xoşxasiyyətli, hazırcavab və zarafatcıl olduğu anlaşılır. Nəvizadənin yeyib-içməyi, əylənməyi sevən xarakterdə olduğunu düşünmək olar (Donuk, 2017, s. 125). Lakin bütün bunlara baxmayaraq, Divanından və əsərlərindən anlaşıldığına görə, şair çox vaxt yaşayışından, sahib olduğu şərtlərdən məmnun deyildi. Əsərlərində tez-tez rüşvətdən şikayət edirdi.

Nəvizadə Ətayinin həyatı haqqında məlumatları təkcə onun öz əsərlərindən deyil, həm də digər müəlliflərin yazdığı təzkirələr və əsərlərdən də əldə edirik. Bu təzkirələr və əsərlər, Ətayinin yaşadığı dövrün ədəbi və ictimai mühiti, onun şəxsiyyəti, ədəbi yaradıcılığı və digər şairlərlə olan münasibətləri haqqında faydalı məlumatlar verir.

Məsələn, dövrün məşhur təzkirə müəllifləri öz əsərlərində Ətayiyə yer vermiş, onun şairlik qabiliyyətini, əsərlərinin özəlliklərini və dövrün ədəbiyyatındakı yerini qiymətləndirmişlər. Həmçinin, o dövrdə yazılmış tarixi salnamələr və digər ədəbi mətnlər də Ətayinin həyatına dair bəzi ipucları verə bilər.

Bu baxımdan, Nəvizadə Ətayinin həyatını tam şəkildə anlamaq üçün müxtəlif mənbələrə, o cümlədən onun öz əsərlərinə, dövrün təzkirələrinə və digər tarixi-ədəbi mətnlərinə müraciət etmək vacibdir.

Təzkirələrdə haqqında daha əhatəli məlumatlar yer alan XVII əsrin ikinci yarısında yaşamış Şeyxi Məhəmmədin, Nəvizadə Ətayinin “Hadâ’iku’l-hakâik fî-tekmileti’ş-Şakâ’ik” əsərindən təsirlənərək əlavələr etməklə təlif etdiyi “Vəqayiül-füzala” əsərində onun adı Ataullah bin Nəvi Yəhya bin Pir Əli bin Nasuh, nisbəsi isə Nəvizadə Ətayi Əfəndi şəklində qeyd olunmuşdur (Ekinci, 2017, s. 84). Ətayinin özünün istifadə etdiyi ad və künyə isə Ətaullah bin Yəhya el-ma`ruf bi-Nevizadedir (Donuk, 2017). Şeyxi bu əsərində əvvəlki mənbələrdə yer alan məlumatlarla yanaşı, Ətayinin xidmət etdiyi məkanlar, tutduğu vəzifələr və bu xidmətlərin tarixləri kimi bir çox məsələlərə toxunur.

Bundan əlavə, müasirlər ilə olan münasibətləri bəzən tərif, bəzən isə tənqidlərlə müşayiət olunurdu. Satira ustası olan Nəfi, Ətayinin açıqsözlü və cəsur şəxsiyyətə malik olduğu təəssüratını yaradır. Nəfinin Ətayi ilə satirik mənzumələrlə deyişməsi zamanı onun “Sihamı Kaza”əsərində işlətdiyi “Dönerdi Nev‘îzâde gibi şekl-i fil-i ma‘kûsa” (Akkuş, 1998, s. 149) misrasında, Ətayini filə bənzədərək, onun iri cüssəli və kök olduğunu vurğulayır. “Şekl-i fil-i ma‘kûsa” *(tərsinə çevrilmiş fil şəkli)* ifadəsi isə, güman ki, Ətayinin qeyri-adi və ya hətta bir qədər yöndəmsiz görünüşünü təsvir etmək üçün işlədilib. Nəfinin bu misrası satirik və tənqidi xarakter daşıyır.

Ətayinin həyatı haqqında məlumatların tapıldığı ilk qaynaq Riyazinin 1609-cu ildə yazdığı “Riyazüş- şüəra” adlı təzkirəsidir. Bu əsər ərsəyə gəldiyi zaman Ətayi 27 yaşında idi. Buna görə də onun haqqında çox məlumat yox idi, çünki o, hələ əsərlərini tamamlamamış və vəzifələrinə yeni başlamışdı. Burada Ətayinin müəllim olduğu və yeni qazilik fəaliyyətinə başladığını bildirir. Halbuki Ətayi bir çox ərazilərdə qazi kimi çalışmış və tez-tez yeri dəyişdirilmişdir. O, Ətayini “Çələbi” (*Osmanlı imperiyası dövründə alicənab, tərbiyəli, təhsilli, bilikli insanlar mənasında işlədilirdi*) adlandırır.

Riyazi, xatirələrində müəllimliklə kifayətlənmədiyini və bu sahədə uğur qazana bilməyəcəyini iddia edərək peşəsini

dəyişdiyini qeyd edir. Bundan sonra Ətayi, müxtəlif yerlərdə yaşayaraq qazilik etmişdir. Ətayi, gəzdiyi yerlər haqqında çoxlu məlumatlar əldə etməklə yanaşı, bəzi yerlərə təyin olunduğu tarixləri də qeyd etmişdir.

Ətayi yaşadığı dövrdə onun haqqında məlumat verən ikinci əsər isə Qafzadə Faizinin "Zübdetül-eş`ar" adlı şairlər təzkirəsidir. Bu əsər 1620-1621 illərdə yazıldığı zaman Ətayi 39 yaşında idi. "Zübdetül-eş`ar" əsəri şairlər antologiyası (şairlər məcmuəsi) olmaqla, şəxsiyyətlərin həyatları haqqında olduqca qısa məlumatlar yer alır. Bura daha çox şairlərin nisbəsi, ləqəbi və ölüm tarixləri yer alır. Təzkirədə Ətayi haqqında demək olar ki, çox az məlumat mövcuddur. Burada Ətayinin divanından şeirlər də yer almışdır.

Ətayinin vəfatından sonra yazılan ilk təzkirə *Zehr-i Mârzâde Seyyid Mehmed Rıza Tezkiresi* dir. Həcminə görə kiçik olsa da, bu təzkirə Ətayinin əsərləri, vəfat ili və yeri haqqında ilk dəfə məlumat verən mənbədir (Zavotçu, 2009, ss. 63-64).

Ətayinin həyatı ilə bağlı məlumat verən digər mənbələrdən biri də tarixçi Katib Çələbinin əsərləridir. Onun iki il məsafə ilə yazdığı "Keşfü'z-zünûn" (1652-1653) və "Türkçe Fezleke" (1654-1655) adlı əsərlərində Nəvizadənin həyatı, əsərləri və ədəbi şəxsiyyətinə toxunulur. İlk dəfə oğlu Məhəmməd barəsində məlumatlar bu əsərlərdə yazılmışdır (Aycibin, 2007, ss. 853-854).

Turqut Karacan "Heft han mesnevisi"nin təhlili zamanı Ətayinin həyatı haqqında yazdığı hissədə oğlunun adının Əhməd Bidari olaraq qeyd edir. Lakin o, mənbə olaraq Məhəmməd Sürəyyanın "Sicilli Osman" əsərini göstərir. Həmin kitabı incələdiyimiz zaman oğlunun adının Məhəmməd Bidari olduğu görünür (Nuri Akbayar, 1996, s. 352).

Məhəmməd əl-Muhibbinin 1699-cu ildə qələmə aldığı "Hulâsatü'l-eser fî A'yâni'l-karni'l-hâdî Aşer" adlı ərəb dilində bioqrafik kitab da Nəvizadə haqqında məlumat olan başqa bir əsərdir.

Nəvizadə Ətayi, Osmanlıda tanınmış şairi olmaqla yanaşı, ölkəsinin fərqli şəhərlərində qazilik də etmişdir. Lakin Osmanlıda qazi vəzifəsinə yüksəlmək o qədər də asan deyildi. Osmanlı imperiyasında ən mühüm vəzifələrdən biri hesab olunan qazinin bir çox məsələdə geniş səlahiyyətləri və vəzifələri var idi. Klassik dövrdə bu hakim vəzifəyə qəbul olmaq üçün "mülazimət" (*yüksək dərəcəli mədrəsə təhsilini başa vurduqdan sonra məzun olan tələbə elmiyyə təşkilatında istənilən vəzifəni tuta bilməsi üçün mədrəsədəki müəllimlərindən biri tərəfindən dəftərə yazılmalı və beləliklə təyinat gözləməlidir*) adlanan sistemin tətbiq olunduğu bilinir (Aykanat, 2018, s. 167).

Orta əsrlər Osmanlı imperiyasında şeyxülislam, qazilik və müəllimlik vəzifələrinə namizədlərin xidmət dərəcəsini və sayını müəyyən edirdi. İstedadlı namizədlər üçün isə bir neçə illik növbə müddəti tətbiq olunurdu. Qazi və müəllimlərin həyatına dair Osmanlı dövrünün tanınmış şəxslərin bioqrafiyalarını əhatə edən "Növbət Fərmanı" adlanan bu sistemə əsasən, qazilər və müəllimlər xüsusi araşdırmalardan sonra təyin edilirdilər.

Qərar vermək səlahiyyətinə malik olan qazilər bu vəzifəyə təyin olunmazdan əvvəl zəruri prosedurlardan keçirilirdi. Bu sistem, namizədlərin təcrübə qazanması üçün bir mərhələ rolunu oynayırdı. Mədrəsə məzunları qazi olmaq üçün mülazimət dövrünü keçməli idilər. Mülazimətə qəbul üçün isə şeyxülislamların tərtib etdiyi xüsusi dəftərlərə adlarını yazdırmalı idilər. Bu dəftərə daxil olmaq üçün namizədlərin müəyyən imtihanlardan müvəffəqiyyətlə keçməsi tələb olunurdu (Aykanat, 2018, s. 169).

Ətayinin 1605-ci ildə İstanbul qazisi və şeyxülislam Yəhya Əfəndiyə təqdim etdiyi bir qitə vasitəsilə Beşiktaşdakı Canbaziyyə mədrəsəsində müdərrislik vəzifəsinə təyin olunmasını xahiş etdiyi məlum olur. Bu müraciətin nəticəsində o, gündəlik 40 axça maaşla sözügedən mədrəsəyə müdərris təyin edilmişdir. Həmin il ərzində onun gündəlik maaşına əlavə olaraq 10 axça artırılmış və bu göstərici onun fəaliyyəti və etimad qazandığını əks etdirən mühüm bir göstərici olmuşdur. Ətayinin elmi və inzibati karyerasında irəliləyiş isə 1608-ci ildə Lofça qazılığına təyin olunması ilə davam etmişdir (Donuk, 2017, ss. 113-114).

Əxizadə Hüseyn Əfəndi 1601-1602-ci illərdə növbət fərmanı verərək bacarıqlı müdərrisləri mülazimət dəftərinə qeyd edir. Həmin zaman mədrəsə təhsilini davam etdirən Ətayi isə 1602-ci ildə bu növbət əsasında mülazım olmuşdur. "Hadâ'iku'l-hakâik fî-tekmileti'ş-Şakâ'ik" əsərindəki Əxizadənin tərcümeyi-halına həsr olunmuş hissədə bu məlumatı şair

belə qeyd etmişdir:

Defterinde nâmımuz bulduk bugün cânânenün
Ölmedin gördük hele kaydın dil-i dîvânenün

(Donuk, 2017, s. 113)

*(Bugün canananin dəftərində adımızı tapdıq, Ölmədik, heç olmasa dəli könlümüzün qeydini gördük.)*

Burada şair, mülazimətə qəbul olunma sevincini, sanki sevgilinin iltifatına bənzədərək ifadə edir. Ətayi, Əxizadə Hüseyn Əfəndinin lütfü sayəsində mülazimətə qəbul edilməsini böyük şərəf və fərəh kimi qiymətləndirir və bu hisslərini öz şeiri vasitəsilə əbədiləşdirir. Mülazimətə qəbul hadisəsi, onun həyatının mühüm bir mərhələ təşkil edir və bu sevinc şairin əsərlərinin əsas mövzularından birinə çevrilir.

Nəvizadə Ətayi mülazimət dəftərinə qeydiyyatdan keçdikdən sonra uzun müddət müddərris olaraq vəzifəyə keçməsini gözlədi.

Tarîk-ı ilme kadem basdı bir nice râcil
Erişdi pâyeye her birisi ayaklandı
Saçak ümîdi ile ben mülâzemet iderek
Piyâde vara gele dâmenüm saçaklandı

(Nev'îzâde Atâyî, No. 2872, s. vr. 232b)

*(Bir çox piyada (yəni, elm yolunda yeni başlayan tələbələr) elm yoluna qədəm qoydu, Hər biri bir mərtəbəyə çatdı, ayaqlandı (möhkəmləndi, irəlilədi). Mən isə bir saçaq (kölgə, himayə) ümidi ilə mülazimət edərək, Piyada vara-gələ (yəni, əziyyətlə, yavaş-yavaş) ətəyim saçaqlandı (himayəyə alındım))*

Şair bu beytində elm təhsilində hər bir fərdin eyni sürətlə irəliləmədiyini, bəzilərinin himayəyə ehtiyac duyduğunu və bu dəstəyi əldə etmək üçün səbirli davranmalı olduğunu vurğulayır. Onun öz təcrübəsini təvazökar şəkildə dilə gətirdiyi müşahidə edilir. Yazdığı qitə ilə gözləmə müddətinin nə qədər yorucu olduğunu dilə gətirir. Nəhayət, 1605-ci ildə ilk rəsmi vəzifəsi olaraq İstanbuldakı Canbaziyə mədrəsəsində müəllim təyin olunur. Daha sonra, 1608-ci ildə müəllimlikdən qazilik vəzifəsinə keçid edirək Rumeli bölgəsində yerləşən Lofça qaziliyinə təyin olunur. 1610-cu ildə Lofça qaziliyindəki vəzifəsindən azad olunduqdan sonra isə Babaeski qazisi olur. "Hadā'iku'l-ḥaqā'iq fī Tekmileti'ş-Şakā'iq" adlı əsərin müvafiq hissəsində Ətayinin həyatına və şəxsiyyətinə dair verilən məlumatlardan aydın olur ki, o, zövq almağa, əyləncəyə və həyatdan ləzzət götürməyə meyilli bir şəxsiyyətə sahib olmuşdur. Bu qeydlər əsasında onun həyatı boyu estetik dəyərlərə, incə zövqlərə və bədii-mənəvi ləzzətə önəm verdiyi qənaətinə gəlmək mümkündür (Donuk, 2017, s. 114).

1618-ci ildə Rusçuk qaziliyinə göndərildi. Ətayi, həyatında baş vermiş mühüm hadisəni "Bin yigirmi beş târîhinde Hezârgırad kâzîsi iken fakîr Lofça'dan Silistre kazâsına nakl olınup…" (Donuk, 2017, s. 115) ifadəsi ilə bildirir. O, təxminən 1616-1617-ci illərdə Hezargırad qazisi vəzifəsində çalışarkən Lofça qazasından Silistrə qaziliyinə təyin olunmuşdur.

Ətayi 1633-cü ildə son olaraq Üskübdə qazilik fəaliyyətinə başlayır. Həmin təyinatı o bu şəkildə ifadə edir:

Salındı hâkim-i Tırhala iken Üsküb'e
Kılup Atâyî'ye himmet gönülden ehl-i kulûb
Semend-i devleti nakl-ile eyledi hareket
Müyesser oldı vusûl-i menâzil-i matlûb
Hesâb idersen eger hemzeyi olur târîh
Vusûli sâline kâzî-i belde-i Üsküb

(Donuk, 2017, s. 118)

Ətayi bu qitəsində Tırhala qazisi olduğu dövrdə Üskübə təyinat aldığını ifadə edir. O, bu təyinatın yalnız inzibati bir dəyişiklik olmadığını, həm də uzun müddətdir arzuladığı məqamın gerçəkləşməsi kimi dəyərləndirir. Üskübdə qarşılaşdığı dəstək və mənəvi qəbul, onun sənət və xidmət yolunda özünü daha dəyərli hiss etməsinə səbəb olmuşdur. Bu da şairin daxili məmnuniyyətini və mənəvi kamillik hissini ön plana çıxarır. Son iki misra isə onun bu təyinatın tarixini qeyri-adi bir şəkildə, əbcəd hesabı və söz oyunu vasitəsilə tapmağa işarə edir. Şairin Üsküb qazisi təyin olunduğu ilin tarixi "*vusûli*" (gəliş) sözündəki hərflərin əbcəd hesabı üzrə ədədi dəyərləri əsasında müəyyən edilir. Bu hesaba "əlif" hərfinin önəmi də əlavə olunduqda, həmin tarixi əks etdirən rəqəm ortaya çıxır. Bu, klassik ədəbiyyatda tarix tapmaq üçün geniş yayılmış bir üsuldur.

Şairim həyatı və yaradıcılığı ilə bağlı mənbələrdə onun müxtəlif rəsmi vəzifələrdə çalışdığı qeyd edilir. Əldə edilən məlumatlara əsasən, Varna, Tekfur dağı, Hezargrand, Tırnova, Tırhala, Manastır və Üskübdə müvəffəqiyyətlə qazilik fəaliyyəti göstərmişdi.

Mənbələrdə şairin vəfat tarixi ilə bağlı fərqli məlumatlatlara rast gəlinir. Katib Çələbi, Bursalı Məhməd Tahir, Müəllim Naci və Uşşakızadə Hasib, Şeyxi Məhəməd, Məhməd Sürəyya kimi tədqiqatçılar şairin 1634-1635 illərdə vəfat etdiyini bildirirlər. Bununla yanaşı, Məhməd Rza onun ölüm tarixini 1636-1637 illərə təsadüf etdiyi bildirir (Zavotçu, 2009, s. 64). Məhməd Nail Tuman isə müxtəlif mənbələrə əsaslanaraq əvvəlki tarixlərin doğru olmadığını iddia edir və Ətayinin 1635-ci il on bir dekabr tarixində vəfat etdiyini bildirir. Lakin Tuman bu iddiasının arxasında dayanan əsaslı sənəd və mənbə təqdim etmir (Tatçı, 2001, s. 686).

Tədqiqatçı Tunca Kortantamer isə Ətayinin Rəvan səfərinə dair yazdığı qəsidəni və Rəvan qalasının fəth tarixi ilə IV Muradın İstanbula dönüşünü əsas götürərək, şairin 1635-ci ilin dekabr ayında vəfat etmiş olma ehitimalını irəli sürür (Kortantamer, 1997, s. 130).

Əksər mənbələrə əsasən, Nəvizadə Ətayi Üskübdəki qazilik fəaliyyətinə xitam verildikdən sonra İstanbula geri dönmüş və orada vəfat etmişdir. Məlumata görə, 1634-cü ildə onun qazilik vəzifəsi sona çatmış, 1635-ci ildə isə İstanbulda dünyasını dəyişmişdir. Şairin nəşi Şeyx Vəfa Təkkəsinin həyətində, atası Nəvi Yəhyanın məzarının yanında dəfn edilmişdir. Ölüm tarixi ilə bağlı bəzi fərqli məlumatalara rast gəlinməsinə baxmayaraq, müasir tədqiqatçılar arasında onun 1635-ci ilin dekabr ayında 52 yaşında vəfat etdiyi fikri daha çox qəbul görmüşdür. Bu tarix həm bioqrafik qaynaqlarda, həm də dövrün digər sənədlərində rast gəlinən məlumatlarla üst-üstə düşməkdədir.

## SONUÇ

Nəticə etibarilə, Nəvizadə Ətayinin həyatı və yaradıcılığı haqqında məlumatlar müxtəlif mənbələrdə fərqli şəkildə təqdim olunsa da, onun həm ədəbi, həm də inzibati sahədə mühüm fəaliyyət göstərdiyi aydın görünməkdədir. Şairin qazilik fəaliyyəti ilə yanaşı, divan ədəbiyyatında qoyduğu iz onun şəxsiyyətini həm dövlət adamı, həm də ədib kimi dəyərləndirməyə şərait yaradır. Ətayinin Üskübdən İstanbula dönüşü, Şeyx Vəfa Təkkəsində dəfn olunması və atası Nəvi Yəhyanın məzarı yanında yatması onun ictimai və mənəvi həyatdakı mövqeyini simvolik şəkildə əks etdirir. Beləliklə, şairin bioqrafiyası ətrafında bəzi ixtilaflar olsa da, onun 52 yaşında vəfat etdiyi qənaəti təqdqiqatçılar arasında üstün mövqe qazanmışdır. Bu nəticə həm klassik mənbələrlə, həm də müasir araşdırmalarla uyğunluq təşkil edir.

**Hakem Değerlendirmesi:** Dış bağımsız.
**Çıkar Çatışması:** Yazar, çıkar çatışması olmadığını beyan etmiştir.
**Finansal Destek:** Yazar, bu çalışma için finansal destek almadığını beyan etmiştir.

**Peer-review**: Externally peer-reviewed.
**Conflict of Interest:** The author has no conflicts of interest to declare.
**Financial Disclosure:** The author declared that this study has received no financial support.

**KAYNAKLAR**


Akkuş, M. (Haz.). (1998). *Nef'î ve Sihâm-ı kazâ*. Akçağ Yayınları.

Araslı, N. (2019). Nəvizadə Ətayinin "Xəmsə"sində Nizami ənənələri. *Nizami Gəncəvi Almanaxı I* (s. 37-55). Kaspi Nəşriyyatı.

Aycibin, Z. (2007). Kâtip Çelebi - Fezleke - Tahlil ve Metin (Tez No: 220175). [Yayımlanmamış Doktora Tezi, Mimar Sinan Güzel Sanatlar Üniversitesi, Sosyal Bilimler Enstitüsü]. YÖK Tez Merkezi.

Aykanat, M. (2018). Klasik Dönemde Osmanlı Devletinde Hâkim Adaylığı: Mülazemet. *Türkiye Adalet Akademisi Dergisi*, 9(34), 165-188.

Çelebi, E. (1935). *Seyahetname* IX cild. (Anadolu, Suriye, Hicaz, Haz.). İstanbul Devlet Matbaası.

İnalcık, H. (2000). *Osmanlı'da Devlet, Hukuk, Adalet*. Eren Yayıncılık.

Karacan, T. (1974). *Nev'î-zâde Atâyî Heft-hân Mesnevisi (İnceleme-Metin)*. Sevinç Matbaası.

Karaköse, S. (Haz.). (2017). *Nev'î-zâde Atâyî Dîvânı*. Ankara: T.C. Kültür ve Turizm Bakanlığı Kütüphaneler ve Yayımlar Genel Müdürlüğü.

Kortantamer, T. (1993). 17. yüzyıl şairi Atâyî'nin hamse'sinde Osmanlı İmparatorluğu'nun görüntüsü. İçində *Eski Türk edebiyatı makaleler 1* (s. 89-150). Akçağ Yayınları.

Kortantamer, T. (1997). *Nev'î-zâde Atâyî ve Hamse'si*. İzmir: Ege Üniversitesi Edebiyat Fakültesi Yayınları.

Kurnaz, C., & Tatçı, M. (Haz.). (2001). *Mehmet Nâil Tuman - Tuhfe-i Nâilî* (Cilt 2). Bizim Büro Yayınları.

Mehmed Süreyya. (1996). *Sicill-i Osmanî* (N. Akbayar & S. A. Kahraman, Haz., Cilt 1). Tarih Vakfı Yurt Yayınları.

Memişoğlu, H. (1994). Bulgaristan'da Türk kültür ve Sanat Eserleri. *Vakıflar Dergisi*, 23, 311-319.

Nev'îzâde Atâyî. (1989). *Hadâ'iku'l-hakā'ik fî Tekmileti'ş-şakā'ik*. Çağrı Yayınları.

Nev'îzâde Atâyî. (2005). *Nefhatü'l-ezhâr* (M. Kuzubaş, Haz.). Deniz Kültür Yayınları.

Nev'îzâde Atâyî. (2009). *Sâkînâme* (M. Kuzubaş, Haz.). Etüt Yayınları.

Nev'îzâde Atâyî. (2017). *Hadâ'iku'l-hakā'ik fî Tekmileti'ş-şakā'ik: Nev'îzâde Atâyî'nin Şakā'ik zeyli* (S. Donuk, Haz., Cilt 1). İstanbul: Türkiye Yazma Eserler Kurumu Başkanlığı.

Nev'îzâde Atâyî. *Hadâ'iku'l-hakā'ik fî Tekmileti'ş-şakā'ik* (Topkapı Sarayı Müzesi, Revan 1438, vr. 256a-b).

Nev'îzâde Atâyî. *Hezliyyât* (Süleymaniye Yazma Eser Kütüphanesi, Esad Efendi Bölümü, No. 2872, vr. 232b).

Şeyhi Mehmed Efendi. (2017). *Vekâyi'u'l-fuzalâ: Şeyhî'nin Şakā'ik Zeyli* (R. Ekinci, Haz., Cilt 1). Bilnet Matbaacılık ve Yayıncılık A.Ş.

Yılmaz, H. K. (1999). *Aziz Mahmud Hüdayi ve Celvetiyye Tarîkati*. Erkam Yayınları.

Zavotçu, G. (Haz.). (2009). *Zehr-i Marzâde Seyyid Mehmed Rıza: Hayatı, Eserleri, Edebî Kişiliği ve Tezkiresi*. Kültür Bakanlığı e-Kitap.